# Azərbaycanlı alimin təqdimatı maraqla qarşılanıb



Türkiyənin Ankara Hacı Bayram Vəli Universitetində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı TÜRKSOY, Ankara Hacı Bayram Vəli Universiteti və Özbəkistan Respublikasının Ankaradakı səfirliyinin birgə təşkilatçılığı ilə Türküstan Cədidçilik hərəkatının öncüsü Mahmudxoca Behbudinin anadan olmasının 150 illiyi münasibətilə ”Mahmudxoca Behbudi və Türküstan Cədidçilik Hərəkatı” mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

Elmi konfransda AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun Türk xalqlarının fəlsəfi fikir tarixi və müasir fəlsəfəsi şöbəsinin müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Faiq Ələkbərli ”Türk dünyasında yeniləşmək-cədidçilik fəlsəfəsinin iki məktəbi: hüseynzadəçilik və qaspıraçılıq” mövzusunda məruzə edib.

Azərbaycanlı alimin təqdimatı maraqla qarşılanıb.

Elm .- 2025.- 24 oktyabr (№33).- S.8.